# «Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında» 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol

«Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında» 1995-ci il 10 fevral tarixli Sazişin (bundan sonra — Saziş) iştirakçısı olan dövlətlərin hökumətləri aşağıdakılar barədə razılığa gəldilər:

1. Sazişə aşağıdakı dəyişikliklər etmək:

1.1. Sazişin adında *«yoxlama»* sözündən sonra *«kalibrləmə, tutuşdurma»* sözləri əlavə edilsin.

1.2. Preambulanın üçüncü abzasında *«istehsalı, yoxlanması»* sözlərindən sonra *«kalibrlənməsi, tutuşdurulması»* sözləri əlavə edilsin.

1.3. 2-ci maddədə *«yoxlama»* sözündən sonra *«kalibrləmə, tutuşdurma»* sözləri əlavə edilsin.

1.4. 5-ci maddə aşağıdakı redaksiyada verilsin:

*«Hazırkı Saziş, depozitariyə — Müstəqil Dövlətlər Birliyinin İcraiyyə komitəsinə qoşulma haqqında sənədlərin təqdim edilməsi yolu ilə standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin həyata keçirilməsi haqqında 1992-ci il 13 mart tarixli Sazişin iştirakçısı olan digər dövlətlərin qoşulması üçün açıqdır».*

1.5. Növbəti maddələrin nömrələnməsini müvafiq olaraq dəyişdirməklə Sazişə aşağıdakı redaksiyada 7-ci maddə əlavə edilsin:

*«Hazırkı Sazişə, Tərəflərin qarşılıqlı razılığı ilə, onun ayrılmaz hissəsi olan ayrıca protokol ilə rəsmiləşdirilən dəyişikliklər edilə bilər».*

2. Hazırkı Protokolun təfsiri və tətbiqi ilə bağlı mübahisələr və fikir ayrılığı, Tərəflər digər halı razılaşdırmadıqda, danışıqlar və məsləhətləşmələri yolu ilə həll edilir.

3. Hazırkı Protokol, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların dövlətlər tərəfindən yerinə yetirilməsi haqqında üçüncü yazılı bildirişin depozitariyə saxlanması üçün verildiyi tarixdən qüvvəyə minir.

Aşqabad şəhərində 2007-ci il noyabrın 22-də bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə hazırkı Protokolu imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərməli olan Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Hökuməti adından*** | ***Moldova Respublikası Hökuməti adından*** |
| ***(imza)*** | ***imza (qeyd-şərtlə)*** |
| ***Ermənistan Respublikası Hökuməti adından*** | ***Rusiya Federasiyası Hökuməti adından*** |
| ***(imza)*** | ***(imza)*** |
| ***Belarus Respublikası Hökuməti adından*** | ***Tacikistan Respublikası Hökuməti adından*** |
| ***(imza)*** | ***(imza)*** |
| ***Gürcüstan Hökuməti adından*** | ***Türkmənistan Hökuməti adından*** |
| — | — |
| ***Qazaxıstan Respublikası Hökuməti adından*** | ***Özbəkistan Respublikası Hökuməti adından*** |
| ***(imza)*** | ***(imza)*** |
| ***Qırğızıstan Respublikası Hökuməti adından*** | ***Ukrayna Hökuməti adından*** |
| ***(imza)*** | ***(imza)*** |

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 noyabr 2009-cu il, № 11 (149), maddə 872) («VneshExpertService» LLC).***

***Azərbaycan Respublikasının 30 sentyabr 2009-cu il tarixli, 876-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*